

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 174(23.816)

22 sentyabr 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaimi qəbul edib. Görüşdə Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb. Söhbət zamanı investisiya qoyuluşu, logistika sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edilib. Eyni zamanda bildirilib ki, Azərbaycanın təşəbbüskarı olduğu yeni nəqliyyat dəhlizlərinin açılması və ölkəmizdə azad ticarət zonasının fəaliyyətə başlaması həm ölkələrimiz arasında, həm də regionda iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynayacaq.

* * *

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 21-də paytaxtdakı Ağ Şəhərdə Bakı Avropa Liseyi üçün inşa edilən 1560 şagird yerlik yeni binanın açılışında iştirak ediblər. Təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya istedadlı uşaqlar üçün yaradılmış, Təhsil Nazirliyinin tabeliyində olan dövlət məktəbi – Bakı Avropa Liseyinin yeni binasında yaradılan şərait barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün paytaxtın Sabunçu rayonundakı 307 və 71 saylı tam orta məktəblərdə aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

# Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə müşavirə keçirilib





Sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir ki, ümummilli lider Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi təsis edilmişdir. Ulu öndər bu barədə demişdir: ***"Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür. Bunları nəzərə alaraq, mən bu Sərəncamı vermişəm".***

Ali Məclisin Sədri diqqətə çatdırmışdır ki, fəaliyyəti dövründə bölmədə, ümumilikdə, 17 beynəlxalq simpozium və konfrans keçirilmiş, mindən artıq kitab, albom, monoqrafiya, tezis və məqalə çap olunmuş, 37 patent alınmış, bölmə əməkdaşları 4-ü beynəlxalq olmaqla, 23 qrant layihəsinin qalibi olmuşlar. Bölmənin strukturunda 6 elmi-tədqiqat müəssisəsi, eləcə də elmi kitabxana və nəşriyyat fəaliyyət göstərir. Bölmədə elmi işçilərdən 2-si akademik, 4-ü Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 4-ü elmlər doktoru, 51-i fəlsəfə doktoru, 57-si isə doktorant və dissertantdır. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində 4 ixtisas üzrə 2 Dissertasiya Şurası fəaliyyət göstərir. Bu illər ərzində muxtar respublikada 27 beynəlxalq və 7 yerli arxeoloji ekspedisiya təşkil edilib və fəaliyyət uğurlu olub.

Ali Məclisin Sədri demişdir: Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaranmasının 20 illiyini elmi nailiyyətlərlə qarşılamaq üçün ciddi fəaliyyət proqramı müəyyənləşdirilməlidir. Müstəqillik illərinə qədər Naxçıvanın tarixi ilə bağlı araşdırmalar məhdud çərçivədə idi. Lakin ötən dövrdə bölmə tərəfindən çoxsaylı elmi əsərlər, kitablar, monoqrafiyalar çap olunaraq ictimaiyyətə təqdim edilib. Bunlar içərisində "Naxçıvan tarixi" üçcildliyi və akademik İsmayıl Hacıyevin "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" kitabı mühüm yer tutur. Bununla belə, Naxçıvan tarixi, xüsusilə Nuh Peyğəmbər və dünya tufanı ilə bağlı araşdırmalar davam etdirilməli, Əshabi-Kəhf barədə tədqiqatlar aparılmalı, yeni elmi əsərlər yazılmalıdır.

Müşavirədə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev məruzə edərək demişdir ki, bölmə əməkdaşları 2020-ci ildə və 2021-ci ilin birinci yarısında 1097 əsər nəşr etdirmişlər ki, onun da 277-si xarici ölkələrdə çap olunmuşdur. Həmçinin əməkdaşların 90 məqaləsi impakt faktorlu jurnallarda, 649 elmi məqaləsi beynəlxalq kodlu elmi jurnallarda nəşr edilmiş, bölmə əməkdaşlarının əsərlərinə 1226 istinad qeydə alınmışdır. Naxçıvan Bölməsinin fəaliyyəti dövründə icra edilən elmi-tədqiqat işlərinin 187 mühüm nəticəsi Azərbaycan Milli Elmlər Akademiyasının illik hesabatlarına daxil edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin maddi-texniki bazası ilbəil möhkəmləndirilmiş, yüksək səviyyədə iş şəraiti yaradılmışdır. Bölmə beynəlxalq internet şəbəkəsinə qoşulmuş, 5 elektron portal yaradılmış, elektron kitabxana formalaşmışdır. Laboratoriyalar üçün lazımi avadanlıq və yeni cihazlar alınmışdır. "Araz-Türk Cümhuriyyətinin fəaliyyətinin tədqiq edilməsi haqqında" Ali Məclis Sədrinin 2019-cu il 24 sentyabr tarixli Sərəncamına əsasən tədqiqat qrupu tərəfindən monoqrafiya hazırlanaraq nəşr edilmiş, "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" Ali Məclis Sədrinin müvafiq Sərəncamına uyğun olaraq "Beynəlxalq Moskva və Qars müqavilələri" monoqrafiyası hazırlanmışdır. "Naxçıvan" jurnalının bir nömrəsi Qars müqaviləsinin 100 illiyinə həsr ediləcəkdir. Moskva və Qars müqavilələrindən sonra Naxçıvanın ərazi-sərhəd məsələsinə aid Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti ilə birgə iki xəritə hazırlanmışdır. "Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında" Ali Məclis Sədrinin Sərəncamına uyğun "Naxçıvanlı rəssamlar ensiklopediyası" hazırlanmış, "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" Ali Məclis Sədrinin müvafiq Sərəncamına uyğun olaraq kitab hazırlanması nəzərdə tutulmuşdur. "Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş "Tədbirlər Planı"na uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin "Elmi əsərləri"nin xüsusi nömrəsi Aşıq Ələsgərə həsr ediləcəkdir.

Akademik diqqətə çatdırmışdır ki, Naxçıvan Bölməsinin 25-ə yaxın əməkdaşı ali təhsil məktəblərində tədris prosesinə qoşularaq tələbələrin diplom işlərinə, magistr dissertasiyalarına uğurla rəhbərlik edirlər. 2020-2021-ci illərdə 3 respublika, 13 muxtar respublika, 31 Naxçıvan Bölməsi səviyyəli konfranslar, 15 tədbir, 23 kitab və monoqrafiyanın təqdimatı keçirilmiş, İlanlıdağ geoparkı üzrə sənədlər işlənmiş, kitab hazırlanmışdır. 12 xarici ölkənin 20-dən artıq müəssisəsinin əməkdaşları ilə əlaqələr yaradılmışdır. İsmayıl Hacıyev göstərilən diqqət və qayğıya görə bölmənin kollektivi və muxtar respublika ziyalıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Fəxrəddin Səfərli muxtar respublikada elmə göstərilən dövlət qayğısına görə minnətdarlıq edərək demişdir: "Müstəqillik illərində muxtar respublikada əldə olunan inkişaf elm sahəsini də əhatə etmiş, kadr potensialı formalaşmışdır. Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu 1 elmlər doktoru, 3 fəlsəfə doktoru, bir neçə kiçik elmi işçi ilə fəaliyyətə başlamışdır. Hazırda isə institutda 1 akademik, 2 müxbir üzv, 9 fəlsəfə doktoru və elmi işçilər fəaliyyət göstərir. Bütün bunlar imkan verir ki, qarşıda duran vəzifələri layiqincə yerinə yetirək. Biz də bu etimada uyğun olaraq fəaliyyətimizi qarşıya qoyulan tələblər səviyyəsində quracağıq".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Hər bir mütərəqqi cəmiyyətdə elmin inkişafı dövlətin əsas vəzifələri sırasındadır. Çünki elm inkişaf etmədən nə sosial-iqtisadi tərəqqidən, nə də yüksək rifahdan danışmaq mümkündür. Muxtar respublikada bu sahədə həyata keçirilən tədbirlər, ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması və müasir elmi-texniki infrastrukturun formalaşdırılması uğurlu nəticələrin qazanılmasına səbəb olmuşdur. 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması ilə bağlı keçirilən müşavirədə ümummilli liderimiz bu qərarın vacibliyini vurğulamış və qarşıya mühüm vəzifələr qoyaraq demişdir: ***"Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii***

Ardı 2-ci səhifədə

***abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var. Ona görə ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur".*** Ötən dövrdə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ulu öndərin müəyyənləşdirdiyi vəzifələrin icrasını diqqətdə saxlamış, Naxçıvanın qədim tarixi, mədəniyyəti, ədəbiyyatı, etnoqrafiyası, folkloru, adət-ənənələri, abidələri, təbiəti və təbii sərvətləri ətraflı öyrənilmiş, Naxçıvanşünaslıq mühüm elmi nailiyyətlərlə zənginləşdirilmişdir.

Ali Məclisin Sədri bütün bu nailiyyətlərə görə bölmənin kollektivinə təşəkkür etmişdir.

"Ümummilli liderimiz Heydər Əliyev elmin hər bir ölkə üçün əhəmiyyətinə də diqqəti çəkərək deyirdi ki, ***"Hansı iqtisadiyyat olursun, elm inkişaf etməlidir".*** Bu gün Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələrində elmi nailiyyətlərin tətbiqi qarşıya mühüm vəzifələr qoyur", – deyən Ali Məclisin Sədri muxtar respublikada elmin inkişafı ilə bağlı müvafiq tapşırıqlar verərək demişdir: Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi fəaliyyətində elmi tədqiqatların və araşdırmaların səmərəliliyini artırmalıdır. Elm sosial-iqtisadi inkişafa öz töhfəsini verməlidir. Ona görə də Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə elmin inkişaf strategiyası bir-biri ilə əlaqələndirilməli, aktual elmi istiqamətlər müəyyənləşdirilməlidir. Elmin və təhsilin inteqrasiyası, innovasiya fəaliyyətinin dəstəklənməsi qarşıda duran əsas hədəfdir. Akademiyanın Naxçıvan Bölməsi orta, orta ixtisas və ali təhsil müəssisələri ilə əlaqələri gücləndirməli, elmin innovasiya fəaliyyətini dəstəkləməli, elmi tədqiqatların tətbiqi mexanizmləri hazırlanmalı və "Elm Festivalı" keçirilməlidir. Muxtar respublikanın müasir ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı alimlər üçün açıq tədqiqat mövzusudur. Akademiyanın Naxçıvan Bölməsinin institutları bu məsələni diqqətdə saxlamalı, təhlilli və müqayisəli əsərlər ortaya qoyulmalıdır. Muxtar respublikanın hər bir rayonunun tarixi yazılmalı, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində bununla bağlı tədqiqat qrupları yaradılmalı, tarix-diyarşünaslıq muzeylərindəki eksponatlardan, arxiv sənədləri və arxeoloji ekspedisiyaların nəticələrindən geniş istifadə olunmalıdır.

Qeyd olunmuşdur ki, Naxçıvanın qədim və müasir dövlətçilik tarixi alimlərimiz üçün əsas tədqiqat predmeti olmalı, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu bu mövzu ilə bağlı yeni elmi əsərlər işləməlidir. Həmçinin Naxçıvanın ən qədim dövrlərdən Azərbaycan türklərinə məxsusluğu ilə bağlı elmi materialların sayı artırılmalı və xarici dillərə tərcümə olunaraq geniş yayılmalıdır. Muxtar respublikada arxeoloji ekspedisiyalar davam etdirilməli, arxeoloji abidələrin uçotu və qeydiyyatı aparılmalı, mühafizə olunmalı, ekspedisiyaların nəticələrinə uyğun olaraq bölmədə yeni elmi istiqamətlər və dissertasiya mövzuları müəyyənləşdirilməlidir. Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu hər bir yaşayış məntəqəsinin etnoqrafik xüsusiyyətlərini, ailə-məişət və təsərrüfat həyatını, sənətkarlıq sahələrini, mərasimlərini araşdırmalı, "Naxçıvan etnoqrafiyası" çoxcildliyi hazırlanmalıdır. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu ədəbi prosesin inkişafı sahəsində fəaliyyətini gücləndirməli, ədəbiyyatşünaslığın əsas istiqamətləri üzrə tədqiqatlar aparılmalı, Naxçıvan ədəbi mühitinin mövcud vəziyyəti və yaradıcılıq istiqamətləri obyektiv təhlil olunmalıdır. Həmçinin institut hər bir bölgə üzrə folklor nümunələrinin toplanması, təsnifatı, nəşri və tədqiqi ilə bağlı fəaliyyətini gücləndirməlidir. Min illər ərzində formalaşmış xalq deyimlərimiz – atalar sözləri, tapmacalar, məsəllər əcdadlarımızın həyat tərzi və dünyagörüşlərinin ifadəsi olmaqla yanaşı, həm də qəhrəmanlıq, vətənə məhəbbət, insanpərvərlik, əməksevərlik kimi nəcib insani keyfiyyətləri təbliğ edir. Ona görə də günümüzdə xalq deyimlərinin toplanması və təbliği zərurətə çevrilmişdir. Etnoqrafiya və Folklorşünaslıq şöbələrinin əməkdaşları bu sahədə fəaliyyəti gücləndirməli, bölgələr üzrə xalq deyimləri yığılmalı və sistemləşdirilərək nəşr olunmalıdır. Təbii Ehtiyatlar İnstitutu fundamental elmlər üzrə tədqiqatları genişləndirməli, muxtar respublikanın təbii sərvətləri öyrənilməli və onların istehsalatda tətbiqi ilə bağlı təkliflər verilməlidir.

Ali Məclisin Sədri demişdir: İqtisadiyyat Nazirliyi təbii sərvətlərimizin istehsalatda tətbiqi ilə bağlı layihələri dəstəkləməli və iqtisadi baxımdan dəyərləndirməli, elmyönümlü yeni istehsal müəssisələrinin yaradılması üçün kreditlər verilməli və bu sahədə sahibkarlıq fəaliyyəti təşviq olunmalıdır. Bioresurslar İnstitutu muxtar respublikanın əkinçilik, torpaqşünaslıq, meliorasiya və su təsərrüfatı sistemini, biomüxtəlifliyini, fauna və florasını elmi əsaslarla tədqiq etməli, Nəbatat bağının imkanlarından istifadə etməklə təcrübələr aparmalı, milli genofond qorunmalı, yerli iqlim şəraitinə uyğun məhsuldar bitki sortları müəyyənləşdirilməli və əkinçilikdə tətbiqi barədə təkliflər verilməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təkliflərini nəzərə alaraq ekoloji tarazlığın qorunması, endemik flora və yerli fauna növlərinin bərpası sahəsində tədbirləri davam etdirməli, bitki və heyvan növləri inventarlaşdırılaraq məlumat bazası yaradılmalı, xüsusi mühafizə olunan təbiət ərazilərində birgə monitorinqlər keçirilməlidir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Səhiyyə Nazirliyi ilə birlikdə təbii sərvətlərimizin tibbi əhəmiyyətini araşdırmalı, termal və mineral sulardan, şorsu palçığından, dərman bitkilərindən müxtəlif xəstəliklərin müalicəsində istifadə olunmalı, bununla bağlı maarifləndirmə işləri aparılmalıdır.

Ali Məclisin Sədri demişdir: Qədim kitab və sənədlərin Əlyazmalar Fonduna daxil edilməsi işin bir tərəfidir. Əsas məsələ isə onların öyrənilməsidir. Əlyazmalar Fondundakı qədim kitab və sənədlərin hər biri araşdırılmalı, aktual olanlar yenidən nəşr edilərək ictimailəşdirilməlidir. Elmi fəaliyyətin əsas göstəricilərindən biri də kadr hazırlığı və düzgün mövzu seçimidir. Bölmədə gənc alimlərin yetişməsi və tədqiqatçı-mütəxəssislərin hazırlanmasına ciddi diqqət yetirilməli, dissertasiya mövzuları müasir elmin inkişaf istiqamətlərinə uyğun seçilməli, elmi yaradıcılıqda kəmiyyətlə yanaşı, keyfiyyətə də fikir verilməlidir. Həmçinin ali təhsil müəssisələrində perspektivli tələbələr müəyyənləşdirilərək bölmənin işinə cəlb olunmalıdır. Alim və ziyalıların ictimai fikrə böyük təsir gücü vardır. Bölmə əməkdaşları bu məsələni diqqətdə saxlamalı, mətbuatda mütəmadi olaraq çıxışlar etməli, ziyalı mövqeyi ortaya qoyaraq ictimai fikri düzgün istiqamətləndirməlidirlər. Bölmənin elmi kitabxanasının fəaliyyəti də gücləndirilməli, fonddakı kitablar elektron məkanda geniş tanıdılmalı, müxtəlif elektron kitabxanalarla əlaqə qurulmalı, informasiya və kitab mübadiləsi aparılmalı, kitabxanada "Naxçıvan bölməsi" yaradılmalıdır. Bölmə əməkdaşlarının Naxçıvan barədə çap olunmuş bütün elmi ədəbiyyatları həmin bölmədə komplektləşdirilərək oxuculara təqdim olunmalıdır. Elmi nailiyyətlərin ümumiləşdirilməsi və yayılması, beynəlxalq elmi əlaqələrin gücləndirilməsi, bölmə əməkdaşlarının yüksək reytinqli elmi jurnallarda məqalələrinin dərc olunması diqqətdə saxlanılmalı, beynəlxalq simpozium, konfrans və seminarlar keçirilməlidir.

"Elm o zaman həqiqi inkişaf mərhələsinə çatır ki, onun nailiyyətləri təhsildə tətbiq olunur",– deyən Ali Məclisin Sədri bildirmişdir ki, Naxçıvanın tarixi, mədəniyyəti, iqtisadiyyatı, təbiəti, coğrafiyası və digər istiqamətləri barədə nəşr olunmuş kitablar seçilərək təhsil müəssisələrində dərs vəsaiti kimi tövsiyə olunmalıdır. Təhsil Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə ümumtəhsil məktəblərində elmi dərəcəli əməkdaşlar tərəfindən interaktiv və nümunəvi dərslərin tədrisini davam etdirməli, "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində müxtəlif tədbirlər keçirilməli, rübdə bir dəfə alim və ziyalılarla məktəblilərin görüşü təşkil olunmalıdır.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatına verilən tapşırıqların icrasının diqqətdə saxlanılması və aidiyyəti üzrə məlumat verilməsi tapşırılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Təhsil müəssisələrinin STEAM kabinələri üçün alınan avadanlıqların təqdimatı keçirilib





*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən sentyabrın 21-də Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbində təhsil müəssisələrində qurulan STEAM kabinələri üçün alınan avadanlıqların təqdimatı keçirilib.*

Təqdimatda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikanın ümumtəhsil məktəblərində şagirdlərin dərin və hərtərəfli biliklərə yiyələnməsi üçün yaradılan yüksək təhsil şəraiti, eyni zamanda təhsilin beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolunda atılan uğurlu addımlar mütərəqqi təlim metodlarının tətbiqinə geniş imkanlar açmışdır.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2019-2020-ci tədris ilindən pilot layihə olaraq muxtar respublikanın 15 təhsil müəssisəsinin VI və VII siniflərində STEAM təhsil metodunun tətbiqinə başlanılmışdır. Aparılan təhlillər əsas verir ki, ötən müddət ərzində pilot məktəblərdə bu təhsil metodu özünü doğrultmuş, şagirdlərin layihə əsaslı biliklərə yiyələnmələrinə, eləcə də onlarda elmi təfəkkürün və mühəndislik bacarığının formalaşmasına böyük təsir göstərmişdir. Məhz bu amillər nəzərə alınaraq son bir ildə STEAM təhsil metodunun tətbiq edildiyi təhsil müəssisələrinin sayı 53-ə çatdırılmışdır. Hazırda Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrindən 1-i orta ixtisas, 3-ü lisey, 1-i xüsusi tipli internat, 3-ü məktəbdənkənar, 45-i isə ümumtəhsil məktəbi olmaqla, 53 təhsil müəssisəsində STEAM kabinəsi, Heydər Əliyev adına tam orta məktəbdə isə "STEAM Tədris Mərkəzi" fəaliyyət göstərir.

Bildirilib ki, layihənin əhəmiyyəti nəzərə alınaraq əhatə dairəsinin daha da genişləndirilməsi məqsədilə 2021-ci il 7 iyun tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncamın icrası ilə bağlı hazırda Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılır, III mərhələ olaraq 50 ümumtəhsil məktəbində STEAM kabinələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Layihənin III mərhələsinin başa çatdırılması ilə 2021-2022-ci tədris ilindən etibarən 104 təhsil müəssisəsində 22 mindən çox şagird STEAM təhsilinə cəlb olunacaq, ümumtəhsil məktəblərində yaradılan STEAM kabinələrinin imkanlarından istifadə olunaraq hər il şagirdlərin müxtəlif STEAM layihələri əsasında "STEAM təhsil festivalı" keçiriləcəkdir.

STEAM dərslərinin tədris edilməsi üçün müəllim-mütəxəssislərin hazırlanması ilə bağlı görülən işlərdən bəhs edilərək vurğulanıb ki, ötən tədris ilində yerli və Azərbaycan Respublikası Təhsil Nazirliyinin əməkdaşları, eləcə də beynəlxalq təlimçilər tərəfindən ümumtəhsil məktəblərinin 200-dən çox müəlliminə və pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrə təlimlər keçirilmiş, təhsil metodunun sistemli tətbiqi üçün VI-VII siniflər üçün STEAM tədris proqramı və tədris vəsaiti hazırlanmışdır. Bunlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə "Robotexnika","Arduino tətbiqetmə kitabı" və "Robot layihələri" kitabları xarici dildən tərcümə olunaraq nəşr edilmiş, ümumtəhsil məktəblərinin 60 şagirdi üçün "STEAM Yay Məktəbi" təşkil edilmişdir.

Çıxışda yeni tədris ilindən etibarən kadr hazırlığı məqsədilə müəllimlərə STEAM yönümlü təlimlərin davam etdiriləcəyini, həmçinin STEAM təhsil metoduna aid yeni xarici ədəbiyyatların Azərbaycan dilinə tərcümə olunmasının nəzərdə tutulduğunu bildirib, STEAM kabinələrin imkanlarından düzgün istifadə olunmasının, texnologiya dərslərinin STEAM kabinələrində tədrisini keyfiyyətinin diqqətdə saxlanılmasının, dərsləri tədris edən müəllimlərin mütəmadi olaraq öz üzərində işləmələrinin zəruriliyi vurğulanıb. Təhsil naziri STEAM təhsil metodunun tətbiqi üçün ümumtəhsil məktəblərində yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra təhsil müəssisələrinin STEAM kabinələri üçün alınmış avadanlıqlara baxış olub. Məlumat verilərək bildirilib ki, kabinələr müasir dizaynda mebel avadanlıqları və elektron lövhə ilə təchiz olunmaqla yanaşı, təhsil müəssisəsinin kabinələri üçün 38 ədəd 3D printer, 76 ədəd 3D çap materialı, 76 ədəd kompüter, 38 ədəd arduino proqramlama inkişaf dəsti, 38 ədəd grove alfa inkişaf dəsti, 228 ədəd günəş paneli, 38 ədəd arduino və 114 ədəd mikrobit dəsti, 228 ədəd servo mühərrik, 38 ədəd istilik sensorlu masa saatı, 38 ədəd rokokey kartı, 190 ədəd 3D qələm, 38 ədəd lafvin robot qol, 38 ədəd elektron dövriyyə dəsti, layihələrin hazırlanmasında istifadə olunacaq 2000-dən çox elektron komponent və digər STEAM qurğuları alınıb. Həmçinin 38 dəst emalatxana alətləri, layihələrin hazırlanması üçün xammal və tədris üçün lazımi materiallar da alınmışdır. STEAM üzrə tədrisin təşkili məqsədilə məktəblərin dərsliklərlə təminatı da diqqətdə saxlanılıb, nəşr olunan STEAM üzrə ədəbiyyatların tirajı artırılıb. Beləliklə, "Robotexnika", "Arduino tətbiqetmə kitabı", "Robot layihələri" və "Robotexnikanın əsasları" kitablarının hər birindən STEAM kabinələri olan məktəblər də daxil olmaqla bütün ümumtəhsil məktəblərinə, Uşaq-Gənclər Yaradıcılıq mərkəzlərinə ayrılıb.

Tədbirin sonunda təhsil müəssisənin kabinələri üçün alınan avadanlıqlar təhsil müəssisələrinin rəhbərlərinə paylanılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

## Tikinti-quruculuq işləri bütün sahələri əhatə edir



Son illər Culfa şəhərində aparılan tikinti-quruculuq işləri həyatın bütün sahələrini əhatə edir. İdarə, müəssisə və təşkilatlar üçün yeni binaların inşası da mütəmadi olaraq diqqətdə saxlanılır, işçilərin ilin bütün fəsillərində səmərəli fəaliyyəti üçün lazımi şərait yaradılır. Belə ki, Culfa şəhər İcra nümayəndəliyinin, Culfa şəhər bələdiyyəsi, rayon Qeydiyyat Şöbəsi, Statistika İdarəsi, Gigiyena və Epidemiologiya Şöbəsi, Notariat Ofisi və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin Culfa Rayon İdarəsinin yerləşdiyi inzibati binada aparılan təmir-bərpa işləri artıq yekunlaşmaq üzrədir. Hazırda son tamamlama işlərinin görüldüyü obyektdə yuxarıda adları çəkilən idarə və təşkilatlar üçün müasir iş otaqları tikilib, işçilərin ilin bütün fəsillərində səmərəli fəaliyyəti üçün lazımi şərait yaradılıb. Elektrik, rabitə və qaz təchizatı sistemi yenidən qurulub. Burada yerləşəcək 7 təşkilatın soyuq qış aylarında rahat fəaliyyət göstərməsi üçün fərdi istilik sistemi də quraşdırılıb.

Qeyd edək ki, obyektin tikintisini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon Tikinti İdarəsinin inşaatçıları aparır. İnşaatçılar tərəfindən işin keyfiyyətlə görülməsinə və təhlükəsizlik qaydalarına əməl olunmasına ciddi fikir verilir.

**Alim AĞAYEV**

***Yüz ildir ki, işıq üzü görən "Şərq qapısı" qəzetinin arxivini vərəqləyərkən qəzetin 9 fevral 1994-cü il tarixli sayında dərc edilmiş "İşsizlik" sərlövhəli məqalə ilə rastlaşdım. O anda bu gün qazanılan uğurların miqyasını bir daha xəyalıma gətirdim. Yazıdakı ümidsizliyi ifadə edən fikirlərlə tanış olarkən inana bilmirsən ki, blokadanın yaratdığı ağır çətinliklərlə üz-üzə qalan bir məkan bu gün belə bir zirvəyə yüksəlib. Məqalədə diqqətə çatdırılan çatışmazlıqlar, əsasən, blokada vəziyyətinə düşmüş və 70 il asılı iqtisadiyyat sistemi ilə idarə olunan Naxçıvan Muxtar Respublikasındakı bütün müəssisələrin bağlanması səbəbi ilə vaxtilə mövcud olan problemlərdir. Gəlin, fikir bildirməyə tələsməyək. Naxçıvanın dünəni ilə bu gününü müqayisə etmək üçün əvvəlcə həmin məqalə ilə tanış olaq.***

# Naxçıvan dünən

## İşsizlik

Bizim yaşadığımız günlərdə işsizlik bir sosial bəladır. Biz ona bekarçılıq da deyirik. Bu, adamların həyat tərzini, əhval-ruhiyyəsini korlayır, ailələri miskin vəziyyətə salır. Bazar iqtisadiyyatı və qiymətlərin bahalaşması, hələ heç bir ölkədə görünmədiyi bir səviyyəyə qalxması blokadada yaşayan muxtar respublika əhalisinin güzəranını çətinləşdirir. Belə bir şəraitdə işsizlik getdikcə artır. Bu gün adamlar güzəranın çətinləşməsi problemi ilə üzüzə dayanıblar. Bəs işsizlər necə etsin? Cüzi yaşayışını necə qursun? Bu, dözülməz vəziyyətdir.

Minlərlə adamı iş yerindən uzaqlaşdıran səbəblər hansılardır? Əlbəttə, ən əvvəl son illərdə muxtar respublikamızın erməni təcavüzkarları tərəfindən blokadaya alınması və bu hesaba müəssisə və təşkilatlara xammal, material və ehtiyatların daxil olmamasıdır. Zavodlarda, fabriklərdə istehsal prosesləri dayandığından iş yerləri də ixtisar edilmişdir. İndi müəssisələr bu adamların hamısını işlə təmin etmək iqtidarında deyil. Çoxlu adam işsiz qalıb. Çoxuşaqlı qadınlar, gənclər, sağlamlıq imkanları məhdudlar üçün iş yerləri təyin olunur. Bu normanı icraiyyə komitələri təsdiq edirlər. Lakin idarə, müəssisə və təşkilatlar bu qərarı yerinə yetirmirlər. İdarə, müəssisə, təşkilatlar boş qalmış iş yerləri haqqında məşğulluq idarəsinə məlumat vermirlər. Bu da bir problem yaradır.



Müharibə gedən ölkədə istehsal prosesləri pozulduğundan getdikcə işsizlərin sayı artır. Amma həlli mümkün olan məsələlərə muxtar respublikanın yerli icraiyyə komitələrinin laqeyd münasibət bəsləməsi bir çox ailələrin güzəranını aşağı salmış, əhalinin əksər hissəsi kasıblıq həddində yaşayır. Bazar iqtisadiyyatı əhalinin bu qəbildən olan hissəsinin sosial müdafiəsini yaxşılaşdırmaq üçün əlavə tədbirlər hazırlanmasını qarşıya qoyur. Lakin respublikamızın torpaqlarında müharibə getdiyindən hələlik adamların ümid ilə yaşamasından başqa çarəsi yoxdur.

***"Şərq qapısı" qəzeti,***
***9 fevral 1994-cü il***

# və bu gün

# Uğura aparan yol – qayğı və zəhmət

### *Böyük əmələ sadiqlik, əzm, qətiyyət və uğur*

Ötən əsrin 90-cı illərinin əvvəllərindən blokadaya salınan yurdumuzda, demək olar ki, bütün sahələrdə vəziyyət çox ağır idi. Ermənilərin çirkin əməllərinə paralel olaraq, mərkəzi hakimiyyətin də biganə münasibəti ucbatından bir tərəfdən qədim diyarımızın işğal təhlükəsi ilə üz-üzə



qalması, digər tərəfdən ərzaq qıtlığı, işsizlik, təknələrimizin əziz nemət olan çörəyə belə, həsrət qalması, işığın, təbii qazın olmaması, bütün bunların fonunda təbiətin də bizi sınağa çəkməsi – yayın şiddətli istilər, qışın isə sərt şaxtalar ilə müşahidə edilməsi vəziyyəti daha da gərginləşdirirdi. Həmin vaxtlarda ümid ilə üz tutduğumuz iş yerlərinin, demək olar ki, hamısı bağlanmışdı. Böyüklərimiz deyirdilər ki, çətin günün ömrü az olar. Bizim çətin günlərimizin ömrü isə ONUN gəlişi ilə bitdi. Tanrı dahi rəhbəri dünyaya göz açdığı, çörəyi, suyu ilə böyüdüyü yurdunu xilas etməyə göndərdi.

Həmin dövrdə görkəmli dövlət xadiminin burada olması təkcə Naxçıvanı yox, bütöv Azərbaycanı yox olmaq təhlükəsindən qurtardı. Çətin günlərdə ulu öndərin ciddi səyləri nəticəsində bir sıra problemlər həll edilirdi. Lakin yaranmış vəziyyət bütün məsələləri tam həll etməyə imkan vermir, bəzi çətinliklərin aradan qaldırılması üçün zaman tələb olunurdu...

### *Özünüməşğulluğun təmin edilməsi üçün aztəminatlı ailələrə dəstək göstərilir*

Bu gün diyarımızda əsası ulu öndər tərəfindən qoyulan ailələrin maddi və mənəvi tələbatlarının ödənilməsi, həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi davamlı xarakter alıb. Sosial qayğıya ehtiyacı olan ailələrin məşğulluğu diqqət mərkəzinə çəkilib. Bu istiqamətdə ailə əməyinə əsaslanan fərdi təsərrüfatlar yaradılır. Uzun müddət ünvanlı dövlət sosial yardımı alan ailələrə fərdi təsərrüfatlarını qurmaq, öz iş yerlərini açmaq üçün müvafiq köməkliklər göstərilir.

Belə təsərrüfatların yaradılması istiqamətində görülən tədbirlərin həcmi getdikcə artır. Müraciət edənlər içərisində ailələrə yanında balası olan iribuynuzlu mal-qara, yanıbalalı xırdabuynuzlu heyvan, arı ailəsi, xalça toxumaq üçün ləvazimat, pinəçi, dərzi üçün lazım olan avadanlıqlar verilir.

Məqalədə göstərilən *"Çoxuşaqlı qadınlar, gənclər, sağlamlıq imkanları məhdudlar üçün iş yerləri təyin olunur. Bu normanı icraiyyə komitələri təsdiq edirlər. Lakin idarə, müəssisə və təşkilatlar bu qərarı yerinə yetirmirlər. İdarə, müəssisə, təşkilatlar boş qalmış iş yerləri haqqında məşğulluq idarəsinə məlumat vermirlər"* kimi problemlər artıq öz həllini tapıb. Belə ki, mütəmadi olaraq keçirilən əmək yarmarkalarında işlə təmin edilən insanların maddi rifah halı yaxşılaşır və bu da insanları elə, yurda daha sıx tellərlə bağlayır. Sağlamlıq imkanları məhdud şəxslərin də özünüməşğulluğa cəlb edilməsi görülən işlər arasında xüsusi yerə malikdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən bu qəbildən olan insanlara onların istəyinə uyğun və sağlamlıqlarının imkan verdiyi şəkildə bir işlə məşğul olmasına şərait yaradılır. Sağlamlıq imkanları məhdud şəxslərin əl işlərindən ibarət sərgilər təşkil olunur. Fiziki imkanları məhdud qadınların toxuduqları yun şərf, corab, boyunluq və jiletlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən haqqı ödənilməklə alınaraq Vətənin müdafiəsində dayanan əsgərlərimizə hədiyyə edilir. Haqqıödənilən ictimai işlərin təşkil olunması, məhdud fiziki imkanlı şəxslərin səmərəli məşğulluğuna, onların sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaradıb. Ötən il bu qəbildən olan vətəndaşlar tərəfindən toxunan 4100 cüt yun corab, 2900 yun boyunluq və 920 yun şərf artıq hərbi hissələrə təqdim edilib.

### *Peşə hazırlığı kursları əmək bazarının tələblərinə uyğun təşkil edilir*

Məqalədə diqqəti çəkən məqamlardan biri də gənclərin işlə təmin olunmaması ilə bağlıdır. Həmin illərdə muxtar respublikada bütün müəssisələr bağlandığı üçün işsiz qalan gənclər ümidi ya qardaş Türkiyə dövlətində ya da ki Rusiyada axtarırdılar. Belə olan halda kəndlərdən uzaq şəhərlərə köç başlanırdı. Müstəqilliyi yeni qazandığımız illərdə yaşanan bu problem də öz həllini tapıb. Muxtar respublikada iqtisadiyyatın inkişafı və sosial bərabərliyin təmin edilməsinə nail olmaq üçün bu sahəyə xüsusi önəm verilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin icrası uğurla başa çatmış 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın böyük əhəmiyyəti ondadır ki, qədim diyarımızda 12 min 479 yeni iş yeri açılıb, məşğulluq mərkəzləri tərəfindən 14 min 699 işaxtaran mövcud vakansiyalar üzrə işlə təmin edilib. Sosial cəhətdən həssas əhali qruplarının məşğulluqda iştirak payı da yüksəldilib, özünüməşğulluq proqramına 595 ailə cəlb edilib. Yeni iş yerlərinin yaradılması üçün sahibkarlığın inkişafına dövlət dəstəyi davam etdirilib, 381 yeni istehsal və xidmət sahələri yaradılıb.

Beş il ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti, bərbər, bərbər-manikürçü, dərzi, aşbaz köməkçisi, traktorçu-maşinist, dayə, elektrik montyoru, rabitə



montyoru, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər peşələri üzrə təşkil edilmiş 127 kursu 1930 müdavim bitirib. Milli və xalq tətbiqi sənəti növləri üzrə peşə kurslarının təşkili məqsədilə xalçaçı kursuna 59 nəfər cəlb edilib. Kəndlərdəki xidmət mərkəzlərində fəaliyyət göstərən bərbərxana, gözəllik salonu və dərzi sexlərinin kadrlarla təminatı istiqamətində işlər görülüb və bu işlər davam etdirilməkdədir. Qeyd olunan sahələrdə vakansiyalara uyğun çalışmaq istəyənlər müəyyənləşdirilib, Naxçıvan Regional Peşə Tədris Mərkəzində müvafiq peşələr üzrə kurs təşkil olunub, xidmət mərkəzlərində 157 bərbər, 166 bərbər-manikürçü və 40 dərzi olmaqla, ümumilikdə, 363 nəfər işlə təmin edilib.

Onu da qeyd etmək yerinə düşər ki, həmin proqramın ardınca Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2021-ci ilin yanvarın 28-də "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Artıq bu dövlət sənədinin də icrası istiqamətində bir çox işlər görülüb və görülməkdədir. Aztəminatlı ailələrin özünüməşğulluqlarının təmin olunması üçün müxtəlif sosial layihələr həyata keçirilir. 2021-ci ilin ötən dövrü ərzində 14 şəhid ailəsinə mənzil təqdim edilmişdir. Muxtar respublikada 160 sosial qayğıya ehtiyacı olan ailənin hər birinə 2 baş iribuynuzlu, 45 ailənin hər birinə 20 baş xırdabuynuzlu, 21 ailənin hər birinə miniyerşumlayan aqreqat, 3 ailəyə inkubator aparatı, 2 ailəyə dərzi avadanlıqları və ləvazimatları, 4 ailənin hər birinə 10 yeşik arı ailəsi, 4 ailəyə otbiçən aqreqat, 1 ailəyə qaynaqçı avadanlığı və ləvazimatları, 1 ailəyə mebellərin təmiri və üzlənməsi üçün avadanlıq və ləvazimatlar, 2 ailəyə unlu və qənnadı məmulatların hazırlanması üçün avadanlıq və ləvazimatlar, 2 ailəyə döşəmə hamarlayan dəzgah, 2 ailəyə isə odunkəsən və 1 otbiçən aparat, 1 ailəyə otdoğrayan aqreqat, 1 ailəyə isə inqubator və tüktəmizləyici aparat, 1 ailəyə dərindondurucu verilmişdir. Ümumilikdə, 2021-ci ilin ötən dövrü ərzində 192 sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluğu təmin edilmişdir. Bununla yanaşı, bu ilin ötən dövrü ərzində 22 şəhid, 11 qazi ailəsinin üzvü, 11 müharibə veteranı özünüməşğulluq proqramına cəlb edilib.

*"Zavodlarda, fabriklərdə istehsal prosesləri dayandığından iş yerləri də ixtisar edilmişdir. İndi müəssisələr bu adamların hamısını işlə təmin etmək iqtidarında deyil. Çoxlu adam müəssisələrdə işsiz qalıb".* Böyük xoşbəxtlikdir ki, bu gün artıq sadalanan bu problemlərin hamısı geridə qalıb. "Uzun müddətdir, işsizəm". Bu gün bu ifadəyə Naxçıvanda rast gəlməzsən, belə fikirlər isə, demək olar ki, "arxivləşib". Əhalinin məşğulluq problemlərinin həlli istiqamətində görülən işlər, mütəmadi olaraq keçirilən əmək yarmarkaları bu işə öz töhfəsini verməkdədir. Yaradılan yeni emal və istehsal müəssisələri, mövcud istehsal sahələrinin fəaliyyətinin bərpa edilməsi, sahibkarlığın inkişafına dövlət dəstəyi məşğulluq problemlərinin həllində mühüm rol oynayıb. Diyarımızın yeraltı sərvətləri, insanların işgüzarlığı bu gün burada çox yaxşı bir mənzərə yaradıb. Bu insanlar və sərvətlər yeni peyda olmayıb, bütün bunlar yüz il bundan öncə də var idi. Hansı ki həmin vaxtlar Vətənimiz və onun ayrılmaz parçası Naxçıvan Sovetlərin ixtiyarında idi.

Əgər əvvəllər muxtar respublikada barmaqla sayılacaq qədər istehsal müəssisəsi var idisə, hazırda bu müəssisələrin sayı yüzlərlədir. Görülən işlər sayəsində muxtar respublikamızda istehsal edilən məhsullar təkcə daxili tələbatı ödəməklə qalmır, xaricə də ixrac olunur. Yeri gəlmişkən, bu gün muxtar respublikada 384 növdə məhsul istehsal edilir. Bu məhsulların 127-si ərzaq, 257-si qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilir.

Bir məsələni xüsusi vurğulamağa ehtiyac duyuram: vaxtilə işsizlik ucbatından başqa yerlərə köç edən insanlar artıq ruzi-bərəkəti öz torpağında axtarır. Yeni ocaqların təməli atılır. Yurdumuzdakı inkişaf və sabitlik hər kəsi öz doğma elinə-obasına bağlayır. Bu gün hansı kəndə yolumuz düşürsə, oradakı gözəl evlər, abad küçələr, axarlı-baxarlı həyətlər, bağ-bağçalar, bol məhsullu əkin sahələri öz kəndində məskunlaşan insanların yaşayışından, xoş güzəranından soraq verir. Diyarımızın təkcə şəhər və rayon mərkəzləri deyil, ucqar dağ kəndləri də söhbət açdığımız yaxın keçmişdə xəyala belə, gəlməyən sürətli inkişaf yolu keçib, gözəl bir məkana çevrilib. Taxılçılığın, tütünçülüyün, meyvə-tərəvəzçiliyin, heyvandarlığın inkişafı istiqamətində qazanılan nailiyyətləri tez-tez həmsöhbət olduğumuz halal zəhmət adamlarının dilindən eşitdikcə torpağın ən sadiq dolanışıq yeri, ruzi-bərəkət ünvanı olduğunu bir daha dərk edirsən. Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən fermerlər, torpaq mülkiyyətçiləri, emal müəssisələri daha yüksək nəticələr əldə etmək üçün səylə çalışırlar. Muxtar respublika sakinləri tikinti-quruculuq, abadlıq sahəsindəki işlərdə əllərindən gələn köməkliyi əsirgəmirlər. Bir sözlə, bu münbit torpağın, bərəkətli yurdun övladları bolluq həvəsi ilə çalışır, muxtar respublika iqtisadiyyatının yüksəlişinə töhfələr verir, halal zəhmətləri ilə özlərinin firavan həyatlarını, xoş güzəranlarını təmin



edirlər. Aqrar sahədə çalışan insanlara göstərilən dövlət dəstəyi nəticəsində indi yüzlərlə sakin sahibkara çevrilib. Nə gözəl ki keçmişlə bu günün müqayisəsi sevindiricidir, qürurvericidir.

*Təbii ki, şahidi olduğumuz bütün xoş mənzərələr heç də asanlıqla yaranmayıb. Qədirbilən naxçıvanlılar ulu öndərin yurdumuza gəlişindən və Ali Məclisin Sədri seçildiyi gündən başlanan inkişaf dövrünü böyük minnətdarlıq hissi ilə gözlər önünə gətirirlər. Çünki həmin tarixdən təməli qoyulan dövlətçilik ənənələri dövlət-xalq, xalq-dövlət birliyi illərdir, öz bəhrəsini verməkdədir. Bu məsələdə zəhməti, əzmkar fəaliyyəti olan muxtar respublika rəhbərinin rolunu xüsusi vurğulamaq lazımdır. Müstəqil Azərbaycan dövlətinin siyasətinin uğurla həyata keçirilməsi, regionda böyük quruculuq proqramlarının ardıcıl olaraq gerçəkləşdirilməsi, müasir inkişafın təmin edilməsi Ali Məclis Sədrinin çoxillik dövlətçilik təcrübəsinin, böyük əməllə əsl sədaqətin vəhdəti olan yorulmaz fəaliyyətinin real nəticələridir.*

**Ramiyyə ƏKBƏROVA**

“Şərq qapısı” – 100

# Ömrünün 26 ilini “Şərq qapısı”na həsr etmiş

## Məmməd Rzayev



*Birəsrlik tarixi olan və 100 illik yubileyinə hazırlaşdığımız muxtar respublikamızın bütün sahələrini özündə əks etdirən “Şərq qapısı” qəzetində müxtəlif dövrlərdə bir-birindən dəyişik qələm sahibləri fəaliyyət göstərmişdir. Onlardan biri də haqqında danışacağım babam Məmməd Rzayevdir.*

Dəyərli ömrünün böyük bir hissəsini Naxçıvanın inkişafına, onun dirçəlməsinə həsr edən Məmməd Rzayev 1911-ci ildə Naxçıvanın qədim və zəngin diyarı olan Ordubad şəhərinin Vənənd kəndində dünyaya göz açmışdır. Məmməd Rzayev ailəsini tez itirdiyindən, iki yaşından Bakı şəhərinə aparılmış, dayısının himayəsində orta təhsil almış, Pedaqoji İnstitutun Coğrafiya ixtisasına qəbul olmuş, çalışqanlığı sayəsində oranı müvəffəqiyyətlə bitirmişdir. Doğulduğu torpağa olan sevgisi yenidən Məmməd Rzayevi Naxçıvana qaytarmış, bir müddət Culfa rayonunda müəllim işləmiş və gələcəyə peşəkar kadr yetişdirilməsi ilə məşğul olmuşdur. İkinci Dünya müharibəsi başladığından 1941-1945-ci illərdə müharibədə iştirak etmək üçün işini dayandırmalı olmuşdur. Müharibədən qayıtdıqdan sonra Məmməd Rzayev yenə də sevdiyi müəllimlik peşəsinə geri dönmüş və bir neçə il Culfada müəllim kimi fəaliyyətini davam etdirmişdir.

1946-cı ildə ailə quran Məmməd Rzayevin dörd oğlu, bir qız övladı vardır. 9 nəvəsi olan Məmməd Rzayevin nəvələrindən biri də mənəm– Çinarə Vaqif qızı Rzayeva. Elmi fəaliyyətlə məşğul olsam da, ailəmizdə bu gün qismən də olsa, babamın yolunu davam etdirən, sadəcə, mənəm. Elmi məqalələrlə birlikdə ara-sıra publisistik məqalələrə də müraciət edirəm. Ancaq inanmıram ki, mən onun kimi publisistikada öz sözümü deyəm, onun qədər məhsuldar olam.

Bir sıra vəzifələrdə çalışan Məmməd Rzayev 1950-ci ildən Naxçıvanda nəşr olunan “Şərq qapısı” qəzetində xüsusi müxbir kimi fəaliyyətini davam etdirir. Ömrünün sonuna kimi (1976-cı ilə qədər) qəzetə bağlı olan babam işini sevən bir jurnalist kimi imzasını da sevdirməyi bacarır. Qəzetin həmin dövrdə nəşr olunan nömrələrini araşdırdığımızda görürük ki, Məmməd Rzayev fəaliyyəti dövründə ancaq Naxçıvanın mənafeyini qorumuş, işində məsuliyyətsiz olan idarə rəhbərlərini kəskin qələmlə tənqid etmiş, işlərinə etinasız yanaşdıqları üçün onları ifşa etmiş, onların işlərindəki çatışmazlıqları qəzet vasitəsilə hər kəsə çatdırmışdır. O həmçinin işində məsuliyyətli olan hər bir kəsin fəaliyyətini təbliğ edərək qəzetdə işıqlandırmışdır. Qeyd edək ki, bəzi məmurların işlərində olan çatışmazlıqları, göstərdikləri məsuliyyətsizlikləri qələmə alaraq onları işıqlandırması, sonrakı dövrlərdə həmin çatışmazlıqların aradan qaldırılmasına gətirib çıxarırdı. Qəzetin sonrakı nömrəsində bunu da “İşdə dönüş yaranmışdır”, “Gerilik aradan qaldırılır”, “Tapşırıqlar yerinə yetirilir” və digər başlıqlar altında oxuculara təqdim edirdi. Bəzi zamanlar da ictimai həyatın mənfi cəhətlərini felyetonları ilə dilə gətirmiş, ictimaiyyətə çatdırmışdır. “Sərgüzəştli sədr”, “Toydan sonra nağara”, “Dərviş səfərə çıxır” adlı felyetonları bir sıra mənfi cəhətləri, çatışmazlıqları özündə əks etdirən oxunaqlı yazılardan, sadəcə, bir neçəsidir. Yazdığı yazılarla cəmiyyətə təqdim edilən çatışmazlıqlar və laqeydliklər aradan qaldırılanda isə görkəmli publisist məqsədinə nail olurdu.

Məmməd Rzayevin qələmindən süzülən yazılar, demək olar ki, o dövrdə aktual olan bütün sahələri əhatə edirdi. Baramaçılıq, pambıqçılıq, heyvandarlıq, üzümçülük, dəyirman, ferma, aşxana, əkinçilik, təhsil, tikinti və bu kimi bir sıra sahələrin hamısı xalq üçün önəmli və vacib olandır. Bu sahələrdə işlərin yaxşılaşdırılması həm dövlət üçün xeyirli, həm də vətəndaşlar üçün bol və keyfiyyətli məhsul əldə etmək demək idi. Adlarından da göründüyü kimi, apardığı araşdırmalar bu gün də hamı üçün vacib olan sahələrdir.

İşlədiyi dövrdə yazdığı məqalə və felyetonları oxuyanda görürük ki, Məmməd Rzayev obyektivliyi, jurnalistin qərəzsizlik prinsipini hər zaman gözləyib. Çünki ömrünü doğulduğu yerə, torpağa, Vətənə həsr edən hər bir kəs haqsızlığı özünə rəva bilməz. Fikrimizcə, şəxsiyyətinə, qələminə dəyər verən, Vətənini sevən hər bir kəs məhz bu cür edərdi.

Ömrünün 26 ilini “Şərq qapısı” qəzetinə həsr edən Məmməd Rzayevin işlədiyi dövrdə əməyi dövlət və qəzet tərəfindən bir neçə dəfə qiymətləndirilmiş, mükafat və diplomlarla təltif olunmuşdur. Qəzetin xüsusi müxbiri olan Məmməd Rzayev “Şərq qapısı”nın 50 illik yubileyində qızıl saatla mükafatlandırılmışdır. Onun bu kimi mükafatları – fəxri fərman və diplomlar alması məhsuldar jurnalistin əməyinə verilən qiymətdir.

Uzun illər qəzetdə fəaliyyət göstərən Məmməd Rzayevin yüzlərlə məqaləsi, felyetonu işıq üzü görmüş, adı bir çox yazıların imza yerində boy göstərmişdir. Onun qələmə aldığı bir sıra felyetonları, məqalələri bu gün tərəfimizdən toplanılır və yaxın aylarda kitab şəklində oxuculara təqdim ediləcək. Bu kitabın nəşrini ömrünü Naxçıvanın inkişafına həsr edən babam Məmməd Rzayevə mənəvi bir borc olaraq bilirəm. Xatırladım ki, kitabda onun fəaliyyət illərində yazdığı əsərlərin bir qismi təqdim ediləcək. Nə üçün bir qismi? Çünki Məmməd Rzayevin bütün yazılarını toplasaq, bir neçə cilddən ibarət külliyyat ərsəyə gələr. Bəlkə, gələcəkdə bu da reallaşacaq.

65 il ömür yaşayan Məmməd Rzayev 1976-cı il dekabr ayının 16-da gözlərini əbədi olaraq yumdu.

*Bu gün fəxrlə və qürurla deyirəm ki, mən Məmməd Rzayevin nəvəsiyəm. O Məmməd Rzayev ki Naxçıvanın mətbuat salnaməsi olan 100 yaşlı “Şərq qapısı” qəzetinin 26 illik tarixində onun imzası var.*

**Çinarə RZAYEVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru***

# Gəl, payızım – zəfər payızım, gəl!..

## (Esse)



Xoş gəlirsən, gəl, payızım. Səni təntənəsiz, təmtəraqsız qarşılamaqmı olar? Ey fəsillər fəsli, mövsümlərin şahı, zəfər payızım, gəl! Gəl ki, zəfərimizin bir ilini bayram edək. Gəl ki, səni minlərimizə laylay edək. Gəl, payızım – zəfərim. Digər mövsümlərtək çox da sevilməyən, lakin 2020-dən hər kəsin sevimlisi fəslim, gəl. Sən əvvəllər insanların sevmədiyi xəzan çağı, bağ-bağçanın solan anı, yaşıl rəngin qənimiydin. Dünənədək ağacların xanı olan yarpaqları xəzəl edib küləklərin ətəyində küçələrdə, dalanlarda o divara, bu divara çırpan idin. Yağışınla, çiskininlə, qara-bozlu buludunla ürəklərə ələm idin. Küçələrdə, bağçalarda islatdığın xəzəlinlə insanların rahatlığını pozan, bəddualar fəsli idin. Xəzəlini neçə həftələr toplayıb, ta bezikib ağacların solğunlaşmış yarpaqlarını çırpıb səndən biryolluq qurtarmaq istəyənlərin dillərində qarğış idin. Az insandı sənin rənglərində təbiətin hüsnün görən. O min rəngli yarpağında yaşılın hicranın görən. Çox az insandı xəzəlinin nəğməsini dinləməkçün saatlarla səninlə olan, küçə, dalan, xiyabanları dolanan. Səndən ilham alıb şair, rəssam, bəstəkar, yazar olan. Çox az insandı...

Deyirlər, Allah hər kəsi eyni yaratmış, onlara hər şeyi eyni vermiş, amma nədənsə biz insanlar bunu anlamaq istəmirik. Daha doğrusu, anlamağa çalışmırıq ki, məndə olan səndə bir başqa şəkildədir. Bax götürək elə səni. Ötən ilədək təbiətin sonu – yaşıl rəngli övladını qoynundan alan, novrağını pozan idin. Amma əslində, sən həm də o yaşıla zamanla veriləcək yeni bir həyat idin. Bilindimi qədir-qiymətin? – Yox. Yaz bir yandan, yay bir yandan, insanlar da bir yandan tənə etdilər sənə. Üşütdükcə, küləkləri əsdirdikcə, qış xəbərin gətirdikcə sevilməyən fəsil oldun. Bəlkə də, acıdı Ulu Yaradan, pozdu bərabərliyi aranızda. Səni elə bir zirvəyə qaldırdı ki, fəsillərin şahı, ta bu dünya durduqca zirvələrdən boylanan oldun...

Gəl, payızım – zəfərim, payızım-yazım, gəl! Gəl, ötən ilindən, indi səni milyonlarla sevənlərə özündən danış. Otuz illik Qarabağın hicranını vüsal edən o qırx dörd gününün hər anını danış. Gəl, payızım – zəfər fəslim, Ali Baş Komandanımızın əmrindən, ərənlərin Vətənimin harayına verdikləri haydan danış... İgidlərin başının altına yastıq olan, bir zamanlar sevilməyən xəzəlindən, səninTək heç bir fəslin görmədiyi qandan danış. Torpağımdan, əzəl yurdlarımdan danış. Suqovuşana qovuşmaqdan, Şuşadakı əlbəyaxa döyüşlərdən, göz yaşını otuz il sularına qarışdıran Arazın Xudafərin vüsalından, dünyaya gözdağı olan Məhəmməd Füzulinin adını daşıyandan, Ağdam, Laçın, Kəlbəcərdən – o ellərin hamısından, məşhur Qarabağ atlarından, düz otuz il boynubükük xarıbülbüldən danış. Düşməni doğma yurdumuzdan qovan, acgözlüyə divan tutan, gəncliyini torpağına qurban verən, anaları qara yaylıq, ataları beli bükük, balaları yetim edən, qız-gəlinin gözlərini əbədi bir yola dikən minlərimdən danış...

Sonsuz idin, ana oldun ötən il, payızım. Minlərimin anası, onlardan danış. Qoynunda laylay deyib torpağa tapşırdığın igid ərənlərindən danış. Ağlamadın, yağış yağar, əsgərim islanar, xəstə olar. Yer islanar, palçıq olar, namus, qeyrət, ar davası yarım qalar. Göz yaşın içinə axdı, ürəyin sızladı, payızım. Sən nə qədər güclüymüşsən... İlahi, tək bir ana gör neçə min oğul verdi qırx dörd gündə torpağa. Bu xəbəri minlərimin uzaqdakı analarına da sən verdin. Hər xəbəri verəndə də nələr çəkdin...

Dağ payızım, dağlı payızım, həm də ki, vüqarlı payızım, gəl, xoş gəlirsən bu ellərə. Qurban sənin əsgər ayağı dəyən, yastıq, yorğan xəzəlinə, igid nəfəsi qarışan nəfəsinə, ərənlərin səninlə son görüşünə. Şəhidinə şahid fəsil, qurban səndə axan qanlara, bağrına çəkilən dağlara, köksündəki yaralara. Qurban sənin otuz ilin həsrətini qırx dörd gündə yox etdiyin ana. Yurd hicranlı qaçqın, köçkün, didərginə açdığın qucağa, kilidli qapılardan qopardığın qıfıllara... Qarabağa gətirdiyin bahara. O bahar ki otuz ildi, didərgindi Qarabağdan. Payızıydın, payızında bahar oldun, yaz günəşi kimi doğdun. Minlərlə anadan balasını alsan da, Qarabağı sən qaytardın doğma ana qucağına. “Oğullar Vətənə qurban doğulur. Qoy olsunlar qurban, ta ki torpaq var olsun, yad əllərdə qalmasın”, – dedin. İgidlərimi aldın, əvəzində namusumuz, iffətimiz, izzətimiz olan torpağı geri verdin. 44 gündə dünyanı bizimlə birgə heyran etdin. Ölkələr rəhbərimiz ətrafında birliyimizin dəmir yumruq olub düşmən başına endirildiyindən, bu yumruğun otuz ilin sükutunu parampərça etdiyindən danışdılar. Haqqına susduqları haqsızlıq üsyan eləyib Qarabağ sehrini çözdü. Biz zəfər qazandıq. Səninlə birgə qalib olduq, payızım. Sən, sadəcə, payızdın, zəfər payızı oldun. Fəsillərin şahı oldun. Həm kədərimiz, həm qürurumuz oldun. Elə o üzdən də övladlarını səndə itirən bu Vətənin anaları deyir:

*Şalımı al bağlaram,*
*Qara yox, al bağlaram.*
*Qarabağda minlərimi*
*Mən qürurdan ağlaram.*

**Mətanət MƏMMƏDOVA**
***Azərbaycan Respublikasının Əməkdar jurnalisti***

# Uşaqların rəsm sərgisi keçirilib



*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “İRS mənim yaradıcılığım” adlı uşaqların rəsm sərgisi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, muxtar respublikamızda uşaqların istedadlarının üzə çıxarılması, mənəvi inkişafı, onların asudə vaxtlarının düzgün təşkili, cəmiyyətin mədəni həyatındakı iştirakları təmin edilir. Uşaqların növbəti rəsm sərgisi də rəngarəng və maraqlıdır, bir sıra xüsusiyyətləri ilə seçilir. 44 günlük şanlı Vətən müharibəsində əldə etdiyimiz Qələbə uşaqların çəkdikləri rəsm əsərlərində çox gözəl ifadəsini tapıb. Rəsmlərdə qəhrəman əsgərlərimiz, şəhidlərimiz, tarixi abidələrimiz, milli dəyərlərimiz əks olunub. Görünür ki, gələcəyin istedadlı rəssamları yetişir və onlar gələcəkdə Rəssamlar Birliyinin üzvü kimi də fəaliyyət göstərə biləcəklər.

Təhsil Nazirliyinin əməkdaşı Murad Babayev çıxış edərək vurğulayıb ki, muxtar respublikamızda uşaqlar milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, təhsil, idman, mədəniyyət, incəsənət və digər sahələrdə uğurlar əldə edirlər. Onlar rəssamlıq sənətinə də böyük maraq göstərirlər. Qeyd edim ki, muxtar respublikada təhsilin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən biri də məktəbdənkənar tərbiyə müəssisələrində yaradılan innovativ dərnəklərdir. Dərnəklərdə rəssamlığa marağı olan uşaqlar iştirak edirlər. Uşaqların asudə vaxtlarının səmərəli təşkili, onların istedad və bacarıqlarının üzə çıxarılması, yaradıcılıq qabiliyyətlərinin genişləndirilməsi üçün bu dərnəklərin xüsusi rolu vardır. Uşaqların rəsm sərgisi gələcəkdə onların yaxşı sənət adamı kimi formalaşmasında əhəmiyyətli rol oynayır.

Əl işləri ilə fərqlənən uşaqlara diplomlar təqdim edildikdən sonra sərgiyə baxış olub. Burada “Ordumuz qürurumuzdur”, “Şəhidlər ölmür”, “Dəmir yumruq”, “Şuşa” və digər rəsmlər tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, sərgi salonunda 70 istedadlı uşağın 106 əl işi nümayiş olunub. Sərgi bir həftə davam edəcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

**İtmişdir**

Ələkbərov Camal Kənan oğlunun adına olan AD-0050133 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 787